TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_______________ E.M.Ağayev
"12" fevral 2020-ci il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**KAMETON** aerozol
CAMETON

**Beynəlxalq patentləşdirilməmiş adı:** yoxdur.

**Tərkibi**
*Təsiredici maddə:* 1 balonda 0,1 q xlorobutanol hemihidrat (100% susuz maddə hesabı ilə), 0,1 q rasemik kamfora, 0,1 q mentol vardır.
*Köməkçi maddələr:* evkalipt yağı, izopropilmiristat, tetraflüoretan.

**Təsviri**
Şəffaf, rəngsiz mayedir.

**Farmakoterapevtik qrupu**
Respirator sistemə təsir edən vasitə. Boğaz xəstəliklərində istifadə edilən preparatlar. Antiseptiklər.
**ATC kodu:** R02AA20.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Kameton mikrobəleyhinə, iltihabəleyhinə və əhəmiyyətsiz dərəcədə yerli anesteziyaedici təsir göstərir, pasiyentin tənəffüsünün normallaşmasına səbəb olur. Preparat, damarları daraldır, eləcə də, zədələnmiş nahiyənin qanla dolmasını və ödemini azaldır. Qeyd edilən farmakoloji xüsusiyyətlərin ahəngi, yuxarı tənəffüs yollarının iltihabi xəstəliklərinin kompleks patogenetik terapiyasını təmin edir. Kameton orqanizmə ulserogen və ümumi toksik təsir göstərmir.
***Farmakokinetikası***
Kameton yerli istifadə üçün nəzərdə tutulub və əsas etibarilə iltihab ocağında terapevtik konsentrasiya yaradır. Ləng və əhəmiyyətsiz miqdarda sistem qan dövranına, yalnız xlorobutanolhidrat və kamfora sorulur ki, bu da, qan zülalları ilə geridönən birləşir. Biotransformasiya zamanı qlükuronidlər yaranır ki, bununla da böyrəklər vasitəsilə xaric olur.

**İstifadəsinə göstərişlər**
Boğazın və burunun kəskin və xroniki infeksion-iltihabi xəstəliklərinin (əsasən, kəskinləşmə dövründə) yerli müalicəsi: tonzillit, faringit, laringit, rinit.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq. 5 yaşa qədər uşaqlar.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**

• Kametonun istifadəsindən əvvəl ağız boşluğunu qaynadılmış ılıq su ilə yaxalamaq lazımdır, preparatı yeməkdən sonra istifadə etmək lazımdır. Yanıq zamanı zədələnmiş nahiyədən steril tamponla nekrotik ərpi təmizləmək lazımdır.
• Kametonun balonunu sökmək və uşaqların əlinə vermək olmaz, zərbədən qorumaq, oda yaxın yerdə püskürtmək olmaz.
• Preparatı istifadə etdikdən sonra püskürdücünün çirklənməsinin qarşısını almaq məqsədilə onun üzərinə qoruyucu qapağı taxmaq lazımdır.
• Buruna püskürdülən zamanı başı tərpətmək və balonu çevirmək olmaz. İnfeksiyanın yayılmasının qarşısını almaq məqsədilə eyni balonu bir neçə şəxsdə istifadə etmək məsləhət görülmür. Preparatı püskürdən zaman onun gözlərə düşməsindən çəkinmək lazımdır.
• Allergiyaya meyilli şəxslər, preparatı istifadə etməzdən əvvəl mütləq həkimlə məsləhətləşməlidirlər.
• Preparatı uşaqlarda ehtiyatla istifadə etmək lazımdır, belə ki, bronxospazmın inkişafı mümkündür. Müalicəni həkim nəzarəti altında aparmaq lazımdır.
• Preparatı burun boşluğuna istifadə etməzdən əvvəl burunu selikdən təmizləmək lazımdır. Boğazın selikli qişasını təmizləyərkən, preparatı yeməkdən sonra istifadə etmək lazımdır.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Qeyd edilməyib. Hər hansı dərman vasitəsilə eyni vaxtda istifadəsinə ehtiyac olduqda, həkimlə məsləhətləşmək lazımdır.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Preparatın hamiləlik və laktasiya dövründə istifadəsinin əks göstəriş olması nəzərdə tutulmayıb, lakin bu dövrlərdə preparatı həkim təyinatı ilə istifadə etmək lazımdır.

**Pediatriyada istifadəsi**
5 yaşdan yuxarı uşaqlarda həkim nəzarəti altında istifadə edilir.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Məlumat yoxdur.

**İstifadə qaydası və dozası**
Böyüklərdə və 5 yaşdan böyük uşaqlarda istifadə edilir. Preparat selikli qişaya yerli və boğazın və burunun zədələnmiş nahiyəsinə istifadə edilir. Böyüklərdə və 15 yaşdan yuxarı uşaqlarda preparatın birdəfəlik dozası boğaza 2-3 püskürtmə və hər burun dəliyinə 1-2 püskürtmə, 5-12 yaşlı uşaqlarda boğaza 1-2 püskürtmə və hər burun dəliyinə 1 püskürtmə, 12-15 yaşlı uşaqlarda boğaza 2 püskürtmə və hər burun dəliyinə 1 püskürtmə təşkil edir.
Preparat sutkada 3-4 dəfə istifadə edilir. Müalicə müddəti həkim tərəfindən fərdi təyin edilir və terapiyanın intensivliyindən asılıdır (adətən 3-10 sutka təşkil edir). Preparatı 2 həftədən artıq istifadə etmək olmaz.
*Balondan istifadə qaydası*
1. Püskürdücünü klapanın ştokuna taxmaq lazımdır.
2. Püskürdücüdən qoruyucu qapaq çıxardılır.
3. Püskürdücünün sərbəst ucu burun boşluğuna 0,5 sm dərinliyə yerləşdirib və ya boğazın zədələnmiş nahiyəsinə istiqamətləndirib püsükürdücüyə basmaq lazımdır. Buruna püskürtmə zamanı balonu çevirmək olmaz.
4. Püskürtməni bitirdikdən sonra çirklənmənin qarşısını almaq məqsədilə püskürdücünü qoruyucu qapaqla bağlamaq lazımdır.

**Əlavə təsirləri**

Preparat, adətən pasiyentlər tərəfindən yaxşı keçirilir, lakin bəzən preparatın komponentlərinə qarşı fərdi həssaslıqla əlaqədar olan reaksiyalar yarana bilər, yanma/boğazda gicişmə, kontakt nahiyəsində ödem, burunun/boğazın selikli qişasının quruluğu, sifətin, dilin ödemi, dəri səpgisi, övrə, qaşınma daxil olmaqla.
Hər hansı əlavə təsirin yaranması zaman preparatın istifadəsini dayandırmaq və mütləq həkimə müraciət etmək lazımdır.

**Doza həddinin aşılması**
Doza həddinin aşılmasına allergik reaksiyalar səbəb ola bilər. Preparatın doza həddinin aşılması əlavə təsirlərin güclənməsinə səbəb ola bilər. Terapiya simptomatikdir.

**Buraxılış forması**
30 q məhlul, alüminium balonda. 1 balon içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır

**Saxlanma şəraiti**
25°C-dən yüksək olmayan temperaturda, işıqdan qorunan və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Mikrofarm" MMC.
Ukrayna, 61013, Xarkov ş., Şevçenko k., 20.